## “Tədqiqatçılarla söhbət” layihəsi

# “Qəbirdə necə tənha yatacamsa...”

## *Professor Rəhilə Quliyeva ilə Anton Çexov haqqında söhbət*



**“Kaspi” qəzeti “Tədqiqatçılarla söhbət” layihəsinə start verib. Layihə əsasında tədqiqatçılar araşdırdıqları mövzular haqqında danışacaqlar. Bu dəfəki müsahibimiz Anton Pavloviç Çexovun tədqiqatçısı, Bakı Slavyan Universitetinin professoru Rəhilə Quliyevadır.**

**- Çexov yaradıcılığında bədii obraz nə ilə səciyyələnir? Çexov obrazının özünəməxsusluğu nədədir?**

- Çexovun yaradıcılığı XIX əsrin 80-ci illərindən başlayır və bu dövrdə Avropa incəsənəti və ədəbiyyatında mühüm dəyişikliklər baş vermişdir. Yazıçılar və yaradıcı şəxslər klassik realizmdən imtina edərək yeni təsviri üsul və metodlarına üz tutmuşdular. Bu proses ilk öncə Fransa tətbiqi sənətində başlamışdır. 60-80-ci illərdə fəaliyyət göstərən fransız rəssamları belə bir nəzəriyyə ortaya çıxartmışdılar ki, fotoşəkil icad olunandan sonra dəqiq təsvirə ehtiyac yoxdur və təsvir görüntüylə yanaşı, təsvir edənin, yəni yaradıcı şəxsin təfəkkürünü də özündə ehtiva etməlidir. Yəni rəssam, yazıçı gördüyündən başqa necə gördüyünü də təsvir etməlidir. Ona görə də təsvir olunan obyekt və onu müşahidə edən subyekt üst-üstə düşür. Çexov da impressionistlər kimi (yəni 60-80-ci illərin nümayəndələri) həyatı daim hərəkətdə təsvir etməlidir. Həyat hər bir an inkişaf edərək dəyişilir və onu donmuş, statik, tamamlanmış bir halda, olmuş hadisə kimi təsvir etmək yanlış olardı. Məhz ona görə elə bir təsvir yaratmağa çalışırdılar ki, guya bu hadisə hal-hazırda gözümüzün önündə, biz orda iştirak edərək baş verir. Bunun üçün də onlar müəyyən sözlər seçirdilər ki, o dərhallığı, dəqiqliyi, bu dəqiqə baş verəni bizə çatdıra bilsinlər. Məsələn, Çexovun “Nişanlı qız” povestində bu yaxında toyu olacaq nişanlı qızda sevinc hissi yox idi, nədənsə kədər, qəm içində gəzirdi. Və baxmayaraq ki, təhkiyə müəllif tərəfindən verilir, hadisələr bu kədərli gənc qızın gözü ilə göstərilir. Buna qəhrəmanın gözü ilə təsvir deyilir. Qəhrəmanın gözü ilə prinsipə uyğun yazıçının nəzər nöqtəsi ilə qəhrəmanın nəzər nöqtəsi üst-üstə düşür. Təhkiyə müəllif tərəfindən təqdim edilən halda da elə bil yazıçı qəhrəmanın cildinə girərək hadisələrdə bilavasitə iştirak edir. Beləliklə hekayənin qəhrəmanı qadındırsa, onda qadın gözü ilə təsvir verilir, əgər körpə uşaqdırsa 5 yaşında, məsələn, Çexovun “Qrişa” hekayəsində olduğu kimi onu 5-6 yaşında uşağın gözüylə və yaxud “Darıxdırıcı əhvalat”da 62 yaşında professor Nikolay Stepanoviçin gözü ilə göstərirdi. “Darıxdırcı əhvalat”da bu daha asan idi, çünki təhkiyə birinci şəxs tərəfindən verilir və professorun həyatdan yadlaşması, özgələşməsi, ümumiyyətlə, əsrin faciəsi idi. Amma Çexov yaradıcılığında bu yadlaşma, özgələşmə təkcə ziyalılara yox, kəndlilərə, uşaqlara, hər bir təbəqənin nümayəndəsinə xas olan bir hissdir. Çexov onun səbəbini və qurtuluş yolunu axtarıb tapmağa çalışırdı. Belə bir qənaətə gəlirdilər ki, bu haldan sevgi hissi insanı xilas edə bilər. Bu sevgi nəinki kişi qadın arasında olan sevgidir, bu sevgi ana-bala, bacı-qardaş, ailə sevgisi, ümumiyyətlə, nəsil-soy münasibətləri də ola bilərdi. Lakin Çexov yaşadığı cəmiyyətdə münasibətlərin hamısı dağılmış və hətta ailədə də ana öz balasının dərdini duymur. “Nişanlı qız” hekayəsindəki kimi gecəni səhərə qədər yatmadan fransız romanlarını oxuyan ana özgə təsvir edilmiş taleyə göz yaşı tökərək ağlamaqdan şişmiş gözü ilə səhər oyanırdı. Amma yanında bədbəxt qızının faciəsini görmürdü. Və qız deyəndə ki, mən kədərliyəm və gecələri yata bilmirəm, anası isə cavabında “Sən və nənən mənə əzab verirsiniz. Mən yaşamaq istəyirəm! Yaşamaq!” deyirdi. Amma onlar əyalətdə yaşayan bir ailədir, harada ki yadlaşma olmamalı idi. Anası həqiqətən mövcud olan həyatdan imtina edərək uydurulmuş, romanlarda təsvir olunan həyatı daha gerçək, daha real hiss edirdi.

Çexov dramlarını nəzərə almadan təxminən 550 hekayə, nəsr əsəri müəllifidir. Orada tənhalığı və tənhaları təsvir edirdi. Gerhart Hauptman “Tənhalar” adlı bir pyes yazmışdı. O, Çexovun dövründə yaşayan bir dramaturq idi. Tənhalıq hissi, özgələşmə prosesi Henrix İbsenin dramlarında da mövcud idi. Çexovun yaradıcılığında bu tənhalıq, bu özgələşmə bütün təbəqələrə aid bir xüsusiyyət idi. “Mujiklər” əsərində Nikolay Çikildeyev kənddən çıxmış bir gənc ailəsi ilə bərabər Moskva şəhərində yaşayırdı. “Slavyanski bazar” mehmanxanasında ofisiant işləyir və vərəm xəstəliyinə tutulduqdan sonra ailəsi ilə birgə doğma Jukovo kəndinə qayıdır. Kəndə gəlib çatanda görürlər ki, bacı-qardaşı, ata-anası onların gəlməyindən məmnun deyillər. Nəyə görə? Çünki kənddəki yaşamı ağır idi. Xəstə qardaş yurduna qayıdanda onun doğmaları fikirləşir ki, yeyənlərin üçü də artdı. Nikolay kəndlərinə qayıtdığına görə peşman idi və arvadı Olqa qarşısında xəcalət çəkirdi. Çexov burada göstərir ki, şəhərə xas olan xüsusiyyət - yadlaşma, özgələşmə kənddə də mövcuddur. Yəni nəsil-soy münasibətləri pozulmuş və insanlar doğmalığını itirmişlər.

Çexovun kəndlilərlə bağlı yazdığı digər əsəri “Yarğanda” povestidir. “Yarğanda” əsərində bir gəlin sonsuzdu, o biri gəlinin Nikifor adlı kiçik bir balası var. Övladsız Aksinya pul ona qalsın deyə Lipa paltar yuyanda qaynar suyu uşağın başına tökərək onu öldürür. Qayınata qoca Sıbukini insult keçirir və kişi bir canlı əşyaya çevrilərək otağın bir küncündə oturur. Əri və qaynı dustaqxanada olan Aksiniya bütün hakimiyyəti öz əlində saxlayaraq təbii ki, Lipanı uşağı öləndən sonra evdən qovur. Lipa öz kəndinə doğma evinə dönüb tarlada taxıl yığaraq yenidən həyata qayıdır. Amma var-dövlətli evdə isə sakinlər elə bil canlı ölüyə çevrilmişdi. Çexov bu faciəni göstərərkən onun dövrünün tənqidçiləri bunu rus kəndinə böhtan kimi qəbul edirlər. Əslində, bu böhtan deyil, həqiqət idi. Çexov bu əsəri XIX əsrin sonu, XX əsrin əvvəlində yazmışdı. Amma 17-ci ilin inqilabı onu göstərdi ki, bu həqiqətdir, çünki həmin o kütlə ayağa qalxaraq Rusiyanı heç nə etdi, çarı devirdi. Çexov onu görmədi, 1904-cü ildə dünyasını dəyişdi. Lakin o öz uzaqgörənliyini təsdiq etdi. Onun gözəl bir ifadəsi vardı, deyirdi: “İnsanlar nahar edir, ancaq nahar edir, bu zaman isə onların bəxtləri gətirir və həyatları dağılır”. İnsan ən xoşbəxt məqamında belə nəzərdən qaçırmamalıdır ki, hardasa çərxi-fələk öz zəngini çalır. Çexovun yazıçı kimi dünya ədəbiyyatında yer tutması məhz adi həyat arxasında baş verən faciələri üzə çıxartmasından irəli gəlirdi. O faciələr gözəgörünməzdir. Onlar Şekspirin və yaxud Maksim Qorkinin qəhrəmanları kimi sinələrinə döyüb car çəkmirlər. Çexov qəhrəmanlarının faciələri onların daxilindədir. Bəziləri dözür, bəziləri isə intihar edir. “Qağayı” əsərinin janrını da komediya adlandırıb, amma baş qəhrəman özünü güllə ilə vurub öldürür. Yazıçı Konstantin Treplyovun anası aktrisa Arkadina öz məşuqəsi yazıçı Triqorinlə həmin bu malikanəyə gəlir. Oğul ilə ana arasında münaqişə baş verir və ana onun başını yarır. Qan axanda deyir, bağışla öz günahkar ananı, onu bağrına basır, başını sarğı ilə sarıyır. Bu bir andır. Konstantin Treplyov bir anlığına elə bil uşaqlıq dövrünə qayıdır, ana nəvazişini görür, doğmalıq hiss edir. Əsərin sonunda isə o intihar edir, çünki istədiyi qız da Nina Zareçnaya anasının məşuqəsi ilə şəhərə qaçır, ondan uşağa qalır. Uşaq öləndən sonra Nina aktrisalıq edir. Həyat keşməkeşindən sonra o, öz doğma evinə qayıdır, yazıçı Triqorinlə yenə də görüşmək istəyir. Kostya Treplyov bunu görəndən sonra özünü güllə ilə vurur. Niyə görə belə faciəvi süjeti Çexov “komediya” adlandırır? Çünki təsvir olunan həyatın məzmunu köhnə həyatdan qalan qanunlara uyğun gəlmir. Yəni tarixin gedişatı ilə bu pyesdə baş verən hadisələr üst-üstə düşmür. Elə bil bu qəhrəmanlar keçmişdə qalıb. Elə bil bunlar dəmir yolu, avtomobil dövründə yaşamırlar. Məhz ona görə də Çexov novellalarında gülünc vəziyyət bundan irəli gəlir. Kəndli balıq tutmaq üçün gedir relsin qaykalarını açıb qırmağa bağlayır ki ,suyun dərininə getsin və balıq tutsun. Bir neçə kənddə də qatar gedəndə rels yerindən tərpənir, qatar qəzaya uğrayır. Və gülünc vəziyyət ondan irəli gəlir ki, qəhrəmanı həbs edəndə o səbəbini anlamır. O deyir: bütün kənd o qaykaları oğurlamaqla məşğuldur. Hələ indiyədək bizim kənddə qəza baş verməyib, Allah özü saxlayacaq. Beləliklə bu kənd aləmi tamam ayrı bir məkandır, amma dəmir yolu, avtomobil, şəhər tamamilə ayrı bir məkandır. Ona görə də Çexov yaradıcılığında bu iki aləm bir-biriylə heç cür uzlaşmır. Elə bir bunlar paralel həyat sürərək bir-birlərinə toxunmurlar. Toxunanda da tragi-komik bir vəziyyət meydana çıxır. Çexovun özünəməxsusluğu budur: yeni qəhrəman, yeni mövzular.

**- Dünya ədəbiyyatının görkəmli nümayəndəsi Lev Tolstoy Çexovun yaradıcılığı haqqında belə demişdir: “Əgər bütün rus ədəbiyyatı təsadüf ucbatından yoxa çıxsaydı və təkcə Çexovun hekayələri qalsaydı, bunlar əsl rus həyatı barədə bütün dünya xalqlarında aydın təsəvvür yaratmaq üçün kifayət edərdi”. Tolstoyun bu fikrini necə şərh edərdiniz?**

- Adətən, roman stabil, tamamlanmış həyatı təsvir edir. Çexov keçid dövründə yaşadığına görə insanlar arasında olan əlaqələr pozulmuş və tarazlanmamış idi. Bu şəraitdə kiçik hekayə daha çevik, dinamik şəkildə bu dəyişikliyi əks etdirməyə qadir idi. Çexovun hekayələri digərlərindən kəskin surətdə fərqlənir. Nəyə görə? Çexovdan öncə yazılan hekayələr hər biri bir epizod təsvir edir. Yəni böyük bir hadisə olsaydı yazıçılar roman yazmağa üstünlük verərdilər. Amma kiçik bir hadisə roman həcmini əhatə edə bilməyəcək deyə onu hekayədə təsvir edirlər. Çexovda hər şey əksinədir. Çexov kiçicik bir epizodu təsvir edəndə həmin epizod vasitəsilə insanın faciəsini açıqlayır. Məsələn, əgər Tolstoy “Anna Karenina” romanını yazırsa, burda ailə xəyanəti ortaya çıxırsa, Çexov həmin faciəni təsvir etmək üçün “İt gəzdirən qadın”ı yazır. Bu hekayədir. Yəni, həmin o problemi hekayə həcmində təsvir edir. Tutalım İvan Qonçarov “Oblomov” romanında yadlaşma prosesini Oblomovun həyatı vasitəsi ilə təsvir edir. Amma Çexov həmin o mövzuda “Firəng üzümü” əsərini yazır. O “Firəng üzümü” əsəri heç 10 səhifə deyil. Həmin o əsərdə romanın məzmunu-ideyasını əks etdirir. Və ya “Qılaflı adam”ı götürək. Onun personajı Belikov sadəcə bir qəhrəman deyil, Rusiyanın həyat tərzinin rəmzidir. Rusiyanın hökmdarlarının hamısı bu böyük ərazinin əhalisini daim qorxu içində saxlamağa çalışırlar, çünki qorxu olmasaydı onları idarə edə bilməzdi. Məhz ona görə də balaca bir İngiltərə demokratiyanın məskənidir, vətənidir. İlk parlament respublikası Venesiyada olub. Venesiya balaca bir şəhərdir. Və Avropada respublika hakimiyyət forması qədim dövrdən mövcuddur. İlk respublikanı Roma imperiyası qurub. İlk demokratiya qədim Yunanıstanda Solon dövründə olub. Rusiyada bu heç vaxt tətbiq edilə bilməz. Demokratiya içdən gəlməlidi, xalqın dərinliyindən gəlməlidi. Xalqın özünün marağı olmalıdır ki, yəni haram yeyilə bilməz. Ruslar əfqan müharibəsindən sonra “Müsəlman” adlı bir film çəkiblər. Rus əsgəri müharibədə əfqanlara əsir düşür. Əfqanlar ona müsəlmanlığı qəbul etdirirlər. Sonra o öz kəndinə qayıdır. Kəndində sakinlər hökumətə az pul versinlər deyə işığın sayğacını düzəldirlər, dolanmaq üçün zavoddan oğurluq edirlər. Müsəlmanlığı qəbul edən deyir ki, mən o çörəyi yeməyəcəm o haramdır, oğurladığınız işıq da haramdır. Buna deyirlər ki, hamı belə yaşayır, biz oğurlamasaq yaşaya bilmərik axı. O, bu haramı qəbul edə bilmir. Və gündə tarlaya gedib orda azan oxuyur və 5 dəfə namaz qılır. Beləliklə rus həyat tərzi tamamilə qərb həyat tərzindən uzaq olan bir anlayışdır. Əslində o şərqdən də uzaqdır. Ona görə qərbə Çexov həmişə həsəd aparırdı. Deyirdi Parisdə mənim xoşuma nə gəlir? İnsanlar gündə təzə bir qəzet oxuyurlar, hər tinbaşı kitabxanadır, hər tinbaşı teatrdır, ziya ocağıdır. Bu ona həsəd aparırdı və o dövrdə Rusiyada bu yox idi.

“İoniç” povestində yazıçı qeyd edir ki, şəhərdə teatr, klub və kitabxana var idi, lakin ora gənc qızlar və cavan yəhudilərdən başqa heç kim getmirdi.

Çexovun yaradıcılığında üç xüsusiyyət var: Birinci xüsusiyyət odur ki, onun yazdıqlarının hamısı Rusiyadakı həyatı təsvir edir. Məsələn, elə yazıçılar var ki, Puşkinin “Mosart və Salyeri” əsərində hadisələr Avstriyada, “Daş qonaq” İspanyada, “Vəba zamanı ziyafət” İngiltərədə Londonda, “Qafqaz əsri” Qafqazda baş verir. Çexovda belə şey yoxdur. Altı xırda hekayəsi var, onların süjeti Rusiyadan kənar baş verir. Məsələn, “Adsız hekayə”, “Toledo müqəssiri” kimi - bunlar o qədər əhəmiyyətli deyil, kiçik hekayələrdir, yumoristikdir. Qalan bütün əsərləri Rusiya ilə, Rusiya gerçəkliyi, rus həyatı ilə bağlıdır. Və belə bir qəribə vəziyyət yaranır. Çexov hekayəni hansı vaxt yazırsa, ordakı hadisələr də o zaman cərəyan edir. Tutalım hekayə yazılır 1886-cı ildə, hadisələr də o hekayədə 1886-cı ildə baş verir. Hekayə yazılır 1890-cı ildə, hadisələr də 1890-da cərəyan edir. Beləliklə Çexov inkişaf etdikcə, dəyişdikcə onun təsvir etdiyi, əks etdirdiyi həyat da Çexovla birgə dəyişilir. Demək olar ki Çexov rus həyatının hərəkatını, inkişafını, gedişatını əks etdirir. Məsələn, onun “Tələbə” hekayəsi var, onu neçə dəfə oxuyursan oxu hadisə elə bil bu dəqiqə sənin gözünün önündə baş verir. Niyə görə? Çexovda elə sözlər var ki “güman etmək olarmı”, “nədənsə”, “nəsə”, “guya” və s. onlar hadisələrin gedişatında qeyri-müəyyənlik yaradır. Əgər yazıçı olmuş hadisəni təsvir edirsə, orada heç vaxt güman etməyə yer qalmır. Yəni dəqiq bilir bu nədi və onu bizə açıqlayır. Çexovun bir balaca hekayəsində 23 dəfədən çox “güman etmək olarmı, güman etsək”, “sanki” belə sözlər ifadə olunur. Çünki hadisələri indi bu dəqiqə gözümüzün önündə baş verməsini oxucuya çatdırmaq yazıçı üçün vacibdir. Çexovun hekayələrində olmuş, tamamlanmış hadisələr deyil, hal-hazırda baş verənlər təsvir edilir. Ona görə də Çexovun hekayəsini bizdən 100 il sonra oxuyanlar da elə biləcək ki, bu hadisələr indi, bu saat gözü önündə baş verir. Çexovun yaradıcılığında çox hadisə elə bil gözlənilmədən, lapdan baş verir. Moskva Dövlət Universitetinin rus ədəbiyyatı kafedrasının müdiri Vladimir Borisoviç Katayev Çexovla bağlı “A.P.Çexovun nəsri: şərhetmə problemləri” (Proza A.P.Çexova: problemı interiretaüii M., qud-vo MQU, 1979) adlı gözəl bir monoqrafiya yazıb. Onun əsas məzmunu rus dilində “kazalosğ-okazalosğ”, yəni “güman edilən və gerçəkləşmiş” anlamları təşkil edir. Çexov yaradıcılığında o, hadisələrin gözə görünməyən tərəfini bizə açıqlayır. Bax bu Çexov yaradıcılığına xas olan xüsusiyyətdir. Çexovun bütün hekayələri bir-birinə zəncirvari bağlıdır. Bunları ayrı-ayrılıqda təhlil etdikdə birmənalı nəticə əldə etmək mümkün deyil. Çünki Çexovun bütün hekayələri açıq başlanğıc və açıq son ilə bitir, yəni heç bir əsər “olduğu hadisə”ylə tamamlanmır. O təsvir olunan hadisə elə bil güzgünün kiçicik parçasıdır. Fransız tədqiqatçısı Filipp Bürti yazmışdı ki, impressionistlərin tabloları, çəkdiyi rəsm əsərləri böyük güzgünün xırda parçalarıdır. Amma o həyatın güzgüsünü tam şəkildə anlamaq üçün o parçaları biz bir-birinə birləşdirməliyik. Hətta Klod Mone eyni mövzu ilə bağlı silsilə əsərlər yaradır (məsələn, “Ot tayası”, “Vağzallar” və s.). Beləliklə Çexovun da hekayələri o böyük güzgünün parçalarıdır. Çexov müəyyən təhkiyə sistemi yaradır, yəni ayrı-ayrılıqda əsərləri oxuya bilərsən, lakin o natamam qalacaq. Bütöv təsəvvür yaratmaq üçün onları gərək sistemli şəkildə oxuyub, anlayasan. Bunu ilk dəfə mənim müəllimim Mixail Petroviç Qromov irəli sürmüşdür. Məsələn, Tolstoyun hər hansı bir romanını ayrı-ayrılıqda götürək. “Anna Karenina”, “Hərb və sülh” və s. kifayət edir ki, onu oxuyaraq bizdə Tolstoy yaradıcılığı haqqında ümumi təsəvvür yaransın. Yəni yazıçının şah əsəri var. Səkkiz roman müəllifi Turgenyevin hər hansı bir romanı, hətta povestini götürüb ayrıca oxusaq, artıq bizdə Turgenyev yaradıcılığı haqqında tam şəkildə təsəvvür yaranır. Və yaxud Puşkini, Qonçarovu götürək. Onlar da eyni səpkidə. Amma Çexovun yaradıcılığında bir hekayə ilə kifayətlənmək olmaz. Çünki əvvəl qeyd etdiyimiz kimi hər hekayə “qəhrəmanın gözü ilə” prinsipinə uyğun bir mövqeni bizə çatdırır. Burada söhbət təhkiyə sistemindən gedir. Bu sistemdə də hər bir halqa vacibdir. Çexovun “Tələbə” hekayəsində belə bir gözəl fikir var “Keçmişlə gələcək bir-biriylə zəncirvari bağlıdır və o halqanın birini tərpətsən o biri tərəfdən digər halqa sənə səs verəcək”. Yəni hadisələr yalnız deyil, tək deyil. Hamısı bir-biriylə zəncirvari bağlıdır. Çünki, əslində, həyat bir axındır. O axında kiçik hadisələr də ola bilər, böyük hadisələr də. Amma o demək deyil ki, bunlar bir-birindən xəbərsiz cərəyan edir. Yox, onlar hamısı o sel axınında gedir. Ona görə də həmin axında hər bir hadisə müəyyən vaciblik təşkil edir. Çexov da məhz bunu göstərməyə çalışır.

**- Çexovun uşaqlıq illəri, yaşadığı çətinliklər, aktrisa Olqa Leonardovna Knipperlə ailə həyatı qurması, sonralar vərəm xəstəliyindən əziyyət çəkməsi, ümumiyyətlə, həyatı yaradıcılığına nə dərəcə təsir etmişdir?**

- Çexov, əslində, bütün həyatı boyu tənha olub. Onlar çoxuşaqlı ailə olub. Bütün qardaşları və bir bacısı Mariya istedadlı olublar. Mariya Konservatoriyanı bitirib, qardaşının biri Nikolay rəssam olub, 28 yaşında vərəm xəstəliyindən dünyasını dəyişib. Bir qardaşı İvan müəllim, ən böyük qardaşı Aleksandr yazıçı idi və Çexovu yazıçılığa o həvəsləndirib. Çexov həmişə deyirdi ki, o məndən qat-qat istedadlıdır, lakin o yüngül həyat tərzi keçirirdi, yeyib-içib gəzməyi sevirdi və keçirdiyi həyat onun bütün yaradıcılığını cılızlaşdırıb heç nə etdi. Amma o da yazıçıdır: Aleksandr Çexovun bir cild hekayələri çıxıb. Çexovun qardaşı oğlu Mixayıl Çexov Amerikada böyük teatr məktəbi yaradıb. Onlar çox istedadlı ailə olub, lakin Çexov “Çöl” hekayəsində dediyi kimi, insanda istedad çox olanda və onu həyata keçirə bilməyəndə o istedad insanı daxildən dağıdır. Ona görə də Çexov öz qardaşlarını gözü önündə görərək uşaqlıq illərindən özünü tərbiyələndirməyə çalışıb. Böyük iradə sahibi olub. İlk öncə qayda-qanuna, nizam-intizama riayət etməyi üstün tutub. Amma ataları Pavel Yeqoroviç Çexov çox qəddar insan olub. O alverlə məşğul idi, öz dükanı vardı. (Babasının soyadı “Çoxov” olub.) Çexovun qardaşı Aleksandr nalayiq hərəkət edəndə o deyərdi: Sən əsl Çoxovsan. Atası öz dükanında uşaqlarını satıcı kimi işlədirdi və tələb edirdi ki, çəkidə, ölçüdə müştəriləri aldatsınlar. Çexov həddi-buluğa çatanda deyir ki, təsəvvür edin balaca bir uşağı ömür boyu aldatmağa, baş əyməyə, müştəriləri cəlb etmək üçün min cildə girməyə öyrədiblər. Çexov 16 yaşındaykən bütün ailəsi 1876-cı ildə Moskvaya köçüb və dükanın borcu çox olduğundan ata onu Taqanroq şəhərində tək qoyub, gənc yaşında o dükanı idarə etməyə məcbur edib. Uşaqlıqda bunların gecə yuxusu da olmayıb, çünki kilsə xorunda gündə dini mahnılar və dualar oxuyublar. Kilsə məhz gecə vaxtı 12-dən sonra boş qalırdı. Ata da bunları oyadıb məşq etmək üçün soyuq kilsəyə aparırdı. Bu səbəbdən onların hamısı vərəm xəstəliyinə düçar oldu və qardaşların əksəriyyəti vərəmdən öldülər. Bu sıradan birincisi-rəssam Nikolay Çexov 28 yaşında vəfat etdi. Bircə bacısı 50-ci illərə qədər yaşadı. Ona görə də Çexov həmişə deyirdi, uşaqlıqda mənim uşaqlığım olmayıb. Ömür boyu damcı-damcı özümdən, şəxsiyyətimdən o qul hissini sıxıb çıxartmışam. Və nəhayət, günlərin bir günü, 10-15 il keçəndən sonra özümü azad bir şəxs kimi hiss etmişəm. Atası onları kölə vəziyyətində tərbiyələndirib, çalışıb ki, onlar o kölə vəziyyətində həyatdan baş çıxartsınlar. Amma Çexovda azadlıq hissi onun qanında vardı. Bir tərəfdən də bu köləlik, digər tərəfdən də azadlıq hissi hər qardaşda vardı. Lakin onların iradələri zəif idi. Çexovu nə xilas etdi? Bütün ailə Moskvaya köçüb getdi, bu tək qaldı, özü öz ixtiyarında qalan dövrdə aclıq və yoxsulluğa baxmayaraq onun sərbəst seçimi vardı. Bu da onun şəxsiyyətinin formalaşdığı dövrə təsadüf edir. Ona görə o dövrdə özünü şəxsiyyət kimi tərbiyələndirə bildi. Əslində, bu da ailə ilə birgə Moskvaya köçsəydi onda onun da aqibətinin necə olacağı bilinməyəcəkdi, çünki daima ata ilə övladlar konfliktdə olublar.



Belə bir fərziyyə də var ki, guya Çexovun övladı olmayıb. Əslində, olub. Guya onun dostu yazıçı Kiselyovun ailəsindən uşağı götürüb Çexovun ailəsində tərbiyələndirirdilər. Mən də həmişə düşünürdüm ki, Kiselyov kasıb adam deyil ki. Yazıçı, jurnalistdir. Niyə görə o, Moskvada yaşaya-yaşaya öz balasını Çexova verməli idi? Gülməli çıxır. Həmin o uşaq Çexovun ailəsində böyüyüb. Hamıya da deyirdilər ki, Kiselyovun övladıdır. Donald Reyfild “Anton Çexovun həyatı” kitabında ilk dəfə açıq-aşkar sənədlərə arxalanaraq qeyd edir ki, həmin onların ailəsində böyüyən uşaq Çexovun övladı olub. Ondan əlavə Çexovun məşuqəsindən qızı da olub. Çexov həmişə qapalı olub baxmayaraq ki ətrafı daim insanlarla əhatəli idi. Çexovun yazı kitabçasından və gündəliyindən olan informasiyanı sizinlə paylaşım. “Qəbirdə necə tənha yatacamsa, eləcə də mən həyatda tənha yaşayıram...”. Bu Çexovun yazı kitabçasından tapılan yazısıdır. Çexov ölənə qədər barmağında üzük olub. O üzüyün içəri tərəfində belə bir yazı var “Tənha adam üçün həyat səhradır”. 1888-ci ildə Çexov Korolenkoya məktubunda yazırdı: “Mənim ətrafımda səmimiyyətimə ehtiyac duyan və ona layiq olan insanlar yoxdur”. Çexov 28 yaşında hələ məktublarında yazırdı ki, sizin evdə bir şey dözülməzdir - insan çoxluğu. Amma həmişə qonaq sevərdi, çalışardı ətrafında daim çox insan olsun. Səbəbini o belə açıqlayırdı: “Mən qonaqsız qala bilmirəm. Tənha qalanda məni vahimə bürüyür, sanki tək nəhəng okeanın ortasında sınıq-salxaq qayıqda üzürəm”. Qəribədir, çox adam deyirdi ki, Çexov mənim dostumdur. Amma Çexov həyatında bir adam haqqında deməyib ki, o mənim dostumdur. Niyə görə? Çexov tənhalıqdan həmişə çox insan, kütlə içində gizlənərdi. Bu tənhalığın ən faciəli formasıdır. Yəni kütlə içərisində tənhalıq, insanlar əhatəsində tənhalıq. Bir neçə rəssam Çexovun şəklini çəkib və indiyə kimi də biz inana bilmirik ki, bu Çexova xas olan xüsusiyyətdir. Onun boyu 186 santimetr olub. Rəssam İosif Braz onun kresloda oturan yerdə rəsmini çəkib və boy-buxunlu Çexovu xəstə, cansız bir insan kimi təsvir edib. Əslində, elə deyil. Çexov bütün rus yazıçıları arasında ən gözəli olub. Həm zahirən, həm daxilən çox gözəl insan olub. Çexovun məhəbbəti haqqında çox şeylər yazıblar. Çünki bütün qadınların ona yazdığı məktubları ölümündən sonra bacısı məhv edib, müəyyən hissəsini seçərək çap eləyib.

*(Davamı səhifə 14-də)*

# “Qəbirdə necə tənha yatacamsa...”

## *Professor Rəhilə Quliyeva ilə Anton Çexov haqqında söhbət*

*(Əvvəli səhifə 13-də)*

Lakin Çexovun qadınlara yazdığı və onlardan aldığı məktubların əksəriyyəti işıq üzü görməyib. Çexov həmişə sevdiyi qadınların hörmətini saxlayıb, istəməyib ki, onların adına bir ləkə gəlsin. Çexovun əslində bir sevgisi olub. Gözəl Lidiya Staxiyevna Mizinova onun bacısı ilə konservatoriyada oxuyub. Olduqca gözəl qadın olub. Çexov da ona vurulmuşdu, o da Çexova. Çexov bilərəkdən bu münasibətin inkişafına imkan verməyib. Çexov başa düşürdü ki, əgər onunla evlənsə, bu gözəllikdə qadın təbii ki, onun bütün diqqətini özünə cəlb edəcək. Bu nə ailəsinə diqqət yetirə biləcək, nə yaradıcılıqla məşğul ola biləcək. Və ona görə bilərəkdən bu məhəbbətdən imtina edir. Lidiya Mizinova (Lika çağırırdılar onu) da qəzəbdən gedir bunun dırnaqarası dostu Potapenkayla Parisə. Parisdə Potapenkadan bunun bir qızı olur. O qız ölür. Deyirlər ki, “Qağayılar” əsərində Lika Mizinova təsvir olunub.

Sonra Mizinova Rusiyaya qayıdır ayrı bir aktyora ərə gedir, əri ruhi xəstə olur. Lika Mizinovanın taleyi demək olar ki, gətirmir. Ayrı bir Lidiya da vardı uşaq yazıçısı Avilova, Çexovun onunla da ciddi münasibəti var idi. O qadının da taleyi faciəvi olub. Çexov aktrisa Olqa Leonardovna Knipperlə evlənir. O “Bədii teatr”ın aktrisası olub. Onlar Çexovun ölümünə bir neçə il qalmış evlənirlər. O həmişə deyirdi ki, mən rus qadını ilə evlənmək istəmirəm, çünki rus qadını ilə evlənsən o saat başlayacaq qazan, uşaq, mətbəx, qohumlar. Ailə qurmaq üçün ən ideal arvadlar almanlardır. O elə həmin alman qadını ilə də evlənir. Bunların həyat tərzi qəribə idi. O Moskvada, bu Yaltada, çünki bu vərəm xəstəliyinə görə daim Yaltada qalmalı idi. Çexov Moskvada Sadovaya-Kudrinski küçəsində ana-atasına ev alır. Onlar orda qalırlar və onun ev muzeyi də həmin o Sadovaya-Kudrinski küçəsindədir. Çexov Melixovada malikanə alır. Moskvanı sevir, amma Moskvada yaşaya bilmir. Buna baxmayaraq məktubda deyirdi ki, “Yazın və bilin: yeganə adam ki, Moskvaya nifrət edirəm”. Amma əslində, Moskvanı çox sevirdi. Moskvada teatr, dostlar, yazıçılar, müəyyən mühit, canlı həyat vardı. Amma Yaltada Tolstoy da onun yanına gəlirdi. Ölümünə bir ay qalmış Çexovu Almaniyaya Badenveyler kurortuna aparırlar və orada həkimə göstərirlər. Həkim ölümünə az qaldığını söyləyir və görür ki bu öskürəkdən dayana bilmir deyir gətirin o qrelkanın içinə buz töküb onun ürəyinin üstünə qoyun ki, nəfəs ala bilsin. Çexov həkimə deyir boş ürəyin üstünə buz qoymazlar. Və sonuncu cümləsi də almanca olub “İch sterbe” - mən ölürəm. Xahiş edib bir şampan süzsünlər, buna qədəhdə şampan süzürlər, içir və dünyasını dəyişir. Cəsədi iyun ayında Moskvaya gəlib çıxdı. Bunu Almaniyadan soyuducu vaqonda gətirirlər. Bütün Moskva Çexovu qarşılamağa çıxır. Vaqon gəlib çatır üstündə də yazılıb: “dəniz ilbizi üçün”. Qarşılayanlardan biri deyir ki, Çexov sağ olsaydı və görsəydi ki, məşhur bir dahi yazıçını həmin bu vaqonda gətirirlər, bir dənə də komik hekayə buna qoşardı. Çexov 1904-cü ildə 44 yaşında vəfat edib. Qəribəsi odur ki, Saxalinə gedir, səyahət edir. Hamı sual verir ki, nəyə görə gedirsən? Guya əsas bəhanə orda olan dustaqları qeydə almaq idi. Və həqiqətən qeydə də alır. Nəticədə “Saxalin adası” əsərini yazdı, sənədli bir əsərdir. Orda olan dustaqlara həsr olunmuşdur. Saxalinlə bağlı bir neçə bədii hekayələr də yaratdı, amma məktublarında yazırdı ki, mən Saxalinə təkcə dustaqlara görə getmirəm, həyatımdan beş-altı il silmək istəyirəm. Doğrudan, Saxalin onu 10 il arxaya atdı.

**- “Kiçik insan” mövzusu rus ədəbiyyatında Puşkin, Qoqol, yaradıcılığında olduğu kimi Çexovun yaradıcılığında öz əksini tapmışdır. Çexovun “kiçik insan”ı kimdir?**

- Əslində, elə bir yazıçı yoxdur ki, rus ədəbiyyatında “kiçik insan” probleminə toxunmasın. Məsələn, Puşkin bu mövzuya insansevər bir mövqedən yanaşır. O belə düşünürdü ki, “kiçik insan” o da insandır, onun da öz əqidəsi, mövqeyi var və o da hörmətə layiqdir. Qoqolun yaradıcılığında isə “kiçik insan” hər şeydən qorxan məmur, o sosial baxımdan da kiçik idi. O qorxu hissi onu o qədər cılızlaşdırıb, balacalaşdırıb ki, onun böyük arzulara ehtiyacı yox idi. O heç düşünmürdü ki, bunun nəsə bir arzusu zadı ola bilər. Məsələn, “Şinel” povestində baş qəhrəmanın işçiləri, həmkarları pul yığıb buna bir şinel alırlar. Bu o şineli geyinib gələndə işə özünü bir insan kimi hiss edir, amma çox çəkmədi. Bir dəfə işdən qayıdanda gecə Sankt-Peterburqda onun şinelini əynindən çıxardırlar. O dərdə düşür, həmin o dərddən də ölür. Yəni bunun bu kiçikliyi heç bir tərəfdən xilas hissi duymur. Ona görə də dünyasını dəyişir. Dostoyevskinin yaradıcılığında onun qəhrəmanı cənab Proxarçin sosial baxımdan kiçikdir, amma daxilən o özünü Napoleon kimi hiss edir, qürur duyur. Amma belə düşünür ki, o özünü vaxtsız ifşa etməməlidir. Yəni ki öz daxili istəklərini açmamalıdır. Çexov isə “kiçik insan”ı təsvir edəndə Çervyakov, əslində, pis insan deyil, o teatrı sevir. Hekayənin adı “Mərhumun ölümü”dür. Gülməli bir süjetdir. İnsan gəlir üzr istəyir, üzr istəyir və nəhayət ölür. Belə baxanda bu faciədir. Gör insan nə qədər bu həyatda müdafiəsiz, kimsəsiz, yəni heç bir tərəfdən pənah gözləməyən bir şəxsdir ki, asqırarkən tüpürcəyi kiminsə üstünə düşüb və o, qorxu içində yaşayıb ölür. Ona görə də Çexovun hekayəsində bir vəziyyət də var: Ona biz deyirik qorxu psixologiyası. “Altı nömrəli palata”da da bu hiss var. Məhkəmədə işləyən hüquqşünas qorxur ki, bunu ədalətsiz və hökmsüz tutub dama aparacaqlar. Bu məhkəmədə işləyərkən o qədər belə hadisələrlə qarşılaşıb ki, birdən məni də tutub apararlar, deyə, qorxu içində yaşayır. Və təbii ki, bunu dəlilərin yatdığı altı nömrəli palataya gətirirlər. Buranın həkimi Raqin də gündə gəlir bunlara baş çəkir. Həmin bu dəlixanaya düşən hüquqşünas Qromov buna deyir ki, sən necə həkimsən? Görmürsən ki, xəstəxanada nə baş verir? Gündə gəlir bunla söhbət edir, görür ağıllı adamdı, hüquqşünasdı, bunlar Şopenhauerdən, Sokratdan, Merejkovskidən danışırlar və bu danışıqlar əsnasında ətrafda baş verənlərə fikir verir və bunları qəbul etmir. Bunun özünü həmkarı həkim Xobotov altı nömrəli palataya yerləşdirir. Nikita bunun başından vurur, beyninə qan sızır və ölür. Amma öləndə gözü önündə gözəllik rəmzi kimi ceyran sürüsü keçir. Və Çexov həmişə iki final verir. Bir final hadisələri bağlayır bir kilid kimi, o biri final isə bu hadisələrdən sonra nəsə işıq yeri qoyur.. Burda demək olarmı Çexovun “kiçik insan”ı daxilən kiçikdir? Sosial baxımdan kiçikdir və qorxu hissi də burdan gəlir. Amma o daxilən də kiçikdir. Puşkində sosial baxımdan kiçikdir, daxilən qürurlu insandır. Dostoyevskidə zahirən o kiçikdir, daxilən Napoleondur. Yəni o təhlükə də törədə bilər, çünki bütün bu Hitlerlər hamısı “kiçik insan” olub. Napoleonu Siyen məktəbində döyüblər. Onlar o vəzifələrə intiqam almaq üçün, qisas almaq üçün ucalıblar. Ona görə belə insanlar çox təhlükəlidir və Dostoyevski əsərlərində onu göstərdi. Amma biz burda deyə bilərikmi Çervyakov Napoleon ola bilər? Yox heç bir vaxt. Çervyakov öz aləmində yaşayır və heç kəsə də toxunmaq istəmirdi. İlk dəfə o asqıraraq ətrafdakı bir insanla kontakta girdi, amma o qorxu hissi elə bil faciəvi hissdir ki, onu gətirib ölümə çıxardı. Yəni Çexovda bu “kiçik insan” problemi çox zəngin bir problemdir. Birmənalı deyil, çünki onun bir “kiçik insan”ı da var: “Qılaflı adam” hekayəsindəki Belikov. Bu kiçik insandır, əslində, savadlıdır, iki dil bilir, latın və yunan dilindən dərs deyir, təbii ki, fransız dilini də bilir. Bu ziyalıdır, amma o qədər qorxu içində yaşayır ki, ətrafı da qorxu içində saxlayır. Burada iki məqam var: Qorxu və vahimə. Çexovun hekayələrindəki vahimə hissidir. Onun “kiçik insan”ı vahimə içində yaşayır. Beləliklə o, hekayələrində də o vahiməni göstərir. Sən onu heç cür üstəliyə bilməzsən, əksinə o vahimə hissi sənin şəxsiyyətini içəridən dağıdır.

**- Çexov ədəbi tənqiddə çox zaman məişəti təsviri edən yazıçı kimi dəyərləndirilir. Sizcə, bu cür təqdimat onun bütün yaradıcılığını əhatə edirmi?**

- Heç cür əhatə etmir. Çexov məişət problemləri ətrafında fəlsəfi problemlər qaldırır. Çexovun yaradıcılığında əslində cılız adam fəlsəfi ideyaları araşdırır. Gonçarovun, Turgenyevin nəhəng qəhrəmanları fəlsəfi ideyaları əks etdirirlər. Çexovun əsərində isə cılız insanlar fəlsəfədən danışır. Götürək “Qara Rahib” əsərini. Baxmayaraq ki, bu əsrin qəhrəmanı magistr Kovrin universitetdə dərs deyir. Amma Qara Rahib




ona hansı ideyaları həkk etdirir? O, ona deyir ki sən dahisən. Qara Rahib görüntüsü onun gözünə görünür, bunu müalicə edəndən sonra Kovrin deyir kim sizdən xahiş etmişdi ki, məni müalicə edin. Mən Qara Rahiblə söhbət edirdim, kimə mane olurdum? Qara Rahib ona istədiyi sözləri deyirdi, tərifləyirdi. Əsərin sonunda o Qara dəniz sahilində öz otağında oturub, pəncərə açıqdı, serenada səsi gəlir. O serenada ilə yenə də Qara Rahibin gəlməsini duyur. Qara Rahib gözünün önünə gəlir və deyir: “Sən niyə öz ideyalarından imtina etdin? Amma indi sənin cismin bu ideyalara tab gətirmir”. Doğrudan da, onun boğazından, ciyərindən qan gəlir, ürəyi partlayıb ölür. “Qara Rahib”, əslində, fəlsəfi əsərdir. İnsan olduğundan yüksək özünü təsəvvür edir, yəni həyatda pozitiv, xeyirverən, materialist dünyadan imtina edərək ideallara üz tutur. Onu həyatdan yüksəkliklərə qaldıran hisslərə üstünlük verir. Ona görə də Qara Rahib ona deyir ki, sən bu ideyalara layiq idin, lakin sən hardasa onlardan qorxub üz döndərdin. Məhz ona görə də sən onlara tab gətirməyib ölməlisən. Onun arvadı Tanya Pesotskayanın atası bunun atasının dostu idi. Ataları hələ uşaq ikən onları evləndirmək istəyirdilər. Tanya Pesotskayanın atası Rusiyada ən böyük bağın sahibi idi. 1862-ci ildə bu bağın təməli qoyulmuşdu. Bu bağ haqqında ensiklopediyalarda yazırdılar, çünki elə bir meyvə, gül növü yox idi ki, bu bağda bitməsin. Orda qar kimi ağ rəngdən kömür kimi qara rəngə qədər zanbaqlar bitirdi. Sual ortaya çıxır nəyə görə Çexov müxtəlif al-əlvan rənglərdən ancaq ikisini seçib ağ və qara. Ağ ölüm, qara isə dəlilik rəmzidir. Onun əsərlərində qırmızı rəng də var. Qırmızı emosional gərginliyi təsvir edir. Öz əsərlərində bu üç rəngə üstünlük verir. Çexov həmişə deyirdi ki, mən yazdıqlarım 10-15 ildən sonra unudulacaq, lakin mən saldığım yollar bütöv və əbədi qalacaq. Con Midlton Marri Çexovun ölümündən 40 il sonra yazmışdı ki, biz indi başa düşürük ki, Çexov nə dərəcə bizə yaxındır, illər keçdikcə biz dərk edəcəyik ki, o bizi nə qədər qabaqlayıb.

**Söhbətləşdi:**
**Aydan UMUDOVA**